


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 220 (23.131)

*17 noyabr 2018-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt şəhərinə səfərə gəlib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti inşaat kimyəviləri zavodunun açılışında iştirak edib.

Prezident İlham Əliyevə Sumqayıt Kimya Sənaye Parkında görülən işlər, parkın rezidentləri barədə məlumat verilib. Bildirilib ki, 2013-cü ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş Sumqayıt Kimya Sənaye Parkında ötən müddətdə intensiv tikinti-quraşdırma işləri aparılıb, köhnə bina və qurğular sökülüb, müvafiq infrastruktur yaradılıb.

Prezident İlham Əliyev zavodu işə salıb.

Dövlətimizin başçısı həmin gün Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "Baku Non Ferrous and Foundry Company" MMC-nin əlvan metallar və ferroərintilər zavodunun, Sumqayıt Kimya Sənaye Parkında "Tabaterra" Qapalı Səhmdar Cəmiyyətinin tütün məmulatları istehsalı fabrikinin, Dəmir Yolu Vağzalı Kompleksinin də açılışlarında iştirak edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımla görüşmüşdür.

Ali Məclisin Sədri Türkiyə Böyük Millət Məclisinə deputat və Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupuna rəhbər seçilməsi münasibətilə Şamil Ayrımı təbrik etmiş, bu seçimin Azərbaycan-Türkiyə əlaqələri üçün faydalı olacağını bildirmişdir. Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin tarixinə nəzər salan Ali Məclisin Sədri Şamil Ayrımın bu sahədəki xidmətlərini xatırladaraq ona təşəkkür etmişdir.

Göstərilən səmimi münasibətə görə minnətdarlıq edən Şamil Ayrım əvvəllər də Naxçıvanda olduğunu bildirmiş, ötən dövrdə muxtar respublikanın sürətlə inkişaf etdiyindən danışmışdır. Qonaq ölkələrimiz arasındakı ikitərəfli münasibətləri diqqətə çatdırmış, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin bu baxımdan əhəmiyyətini vurğulamışdır.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Yaradıcılıq müsabiqəsinə yekun vurulub



***Naxçıvan Dövlət Universitetində "Bayrağım – qürurum, mənliyim" adlı fotovideo, əl işləri müsabiqəsinə yekun vurulub.***

Müsabiqədə fərqlənən tələbələrin mükafatlandırılması mərasimində çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunub.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il avqustun 22-də imzaladığı Sərəncama əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılıb. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Sonra müsabiqənin qalibləri elan olunub. Qeyd edək ki, Azərbaycan Respublikasının Dövlət Bayrağını, digər rəmzlərini də əks etdirən fotovideo, əl işləri hər bir tələbə tərəfindən hərəsindən bir nümunə olmaqla təqdim edilib. Müsabiqəyə universitetin "İnstagram" səhifəsində yerləşdirilmək üçün, ümumilikdə, 100 şəkil, 30-a yaxın video, 20-yə yaxın əl işi buraxılıb. Qaliblər 20 gün müddətində ən çox bəyənilən hər nominasiya üzrə 10 yaradıcı iş arasından seçilib. Peşəkar münsiflərin rəyinə əsasən foto nominasiyasında Menecment ixtisası üzrə III kurs tələbəsi Orxan Həsənov müsabiqənin qalibi olub. Mühasibat uçotu və audit ixtisası üzrə I kurs tələbəsi Əhməd Əhmədzadə II, Dövlət bələdiyyəsi ixtisası üzrə I kurs tələbəsi Emil Allahverdiyev III yeri tutub. Dəmiryol nəqliyyatı və təsərrüfatı mühəndisliyi ixtisası üzrə IV kurs tələbəsi Samir Abbasov video nominasiyası üzrə qalib olub. Təhsildə qiymətləndirmə və monitorinq ixtisası üzrə I kurs magistrant Süməyya İmanova II, Kimya müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Əfruz Mərdanov, Müalicə işi ixtisası üzrə I kurs tələbəsi Mojtaba Azam III yerə layiq görülüblər.

Əl işlərinin qiymətləndirilməsi zamanı tələbələrin şəxsi yaradıcılıq qabiliyyətləri, ideya axtarışları əsas götürülüb. Dünya iqtisadiyyatı ixtisası üzrə Kamal Babazadə müsabiqənin qalibi olub. Memarlıq ixtisası üzrə I kurs tələbəsi İlahə Babayeva II, Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi İnci Qasımova, Rus dili ixtisası üzrə III kurs tələbəsi Fatma Babayeva III, Azərbaycan dili ixtisası üzrə II kurs magistrant Nuridə Məmmədova IV yerə layiq görülüblər. Bu nominasiya üzrə həvəsləndirici yeri Təsviri incəsənət tarixi və nəzəriyyəsi ixtisası üzrə I kurs magistrantlar Həbib Allahverdiyev, Şəmsiyyə Zalova tutublar.

Tələbələr təhsildə onlar üçün yaradılan şəraitə görə minnətdarlıq ediblər.

Qaliblər universitetin diplom və pul mükafatı ilə təltif olunublar.

**Səadət ƏLİYEVA**

## "Ulu öndər Heydər Əliyev və Naxçıvan: ideyadan reallığa" adlı tədbir keçirilib



***Yeni Azərbaycan Partiyası AMEA Naxçıvan Bölməsi müəssisədənkənar ərazi ilk təşkilatı "Ulu öndər Heydər Əliyev və Naxçıvan: ideyadan reallığa" adlı tədbir keçirib.***

Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik ənənələrinin bərpa və inkişaf etdirilməsinə yönəldilən fəaliyyətindən geniş danışıb.

Bölmənin Yeni Azərbaycan Partiyası müəssisədənkənar ərazi ilk təşkilatının sədri, dosent Orxan Bağırovun adıçəkilən mövzuda məruzəsi dinlənilib. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin 1990-cı illərin əvvəlləri muxtar respublikaya rəhbərliyi dövrü qədim diyarımızı düşmən təcavüzündən qoruyaraq gələcək inkişaf mərhələsinin təməlini qoyması, milli dövlətçilik ənənələrinin təşəkkülü istiqamətində tarixi qərarlara imza atması ilə səciyyələnir.

Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ilk dəfə olaraq milli dövlətçilik ənənələrinin dirçəldilməsi baxımından qəbul edilən "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və digər qərarlar mühüm tarixi əhəmiyyət daşıyır.

Qeyd edilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 9 noyabr 1918-ci ildə qəbul etdiyi üçrəngli bayraq ilk dəfə 17 noyabr 1990-cı ildə ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında muxtar respublikanın Dövlət Bayrağı kimi təsis edilib. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxıb və üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar verib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması qədim dövlətçilik tariximizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyət daşıyır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə muxtar respublikada hər il Dövlət Bayrağı Günü qeyd olunur.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***



17 noyabr Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günüdür

# Naxçıvanda üçrəngli bayrağımızın qaldırılması dövlətçilik tariximizdə mühüm mərhələdir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.*

Ali Məclisin 1990-cı il noyabrın 17-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün tarixi qərarlar qəbul edildi. Ulu öndər bu barədə demişdir: ***"Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ kommunist partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılsın. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunsun – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır".***

Dahi şəxsiyyətin işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərar müstəqil Azərbaycan Respublikasının dövlətçilik tarixində ilk və mühüm dövlət sənədi kimi özünəməxsus yerə malikdir. Həmin qərarda deyilirdi:

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

*1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin".*

Həmin gün üçrəngli bayrağımız zala gətirilmiş, beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur. Bununla da milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına məhz ulu öndərimizin rəhbərliyi ilə Naxçıvandan başlanmışdı. O dövrdə dahi şəxsiyyətin Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqillik tariximizdə mühüm mərhələ təşkil edir. Həmin dövrü xarakterizə edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ulu öndər Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət Bayrağı kimi qəbul olundu".***

Sessiyada "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında" Qərarın qəbul olunması, SSRİ kimi qüdrətli bir imperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması çox böyük cəsarət tələb edirdi. Bununla, milli dövlətçiliyimizin hüquqi əsaslarının yaradılması, eləcə də Azərbaycanın dirçəlişi yolunda mühüm addım atılmış oldu.

Müstəqilliyimizin bərpasından keçən dövr ərzində ölkəmizdə milli atributlarımıza hər zaman böyük sevgi ilə yanaşılmışdır. Dövlətçiliyimizin, milli dəyərlərimizin daşıyıcısı olan müqəddəs bayrağımıza ümummilli ehtiramın formalaşdırılması isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin aparıcı istiqamətidir.

Muxtar diyarımızda dövlət atributlarına hörmət və ehtiram bu gün yüksək səviyyədədir. Bu, Naxçıvanın qədim dövlətçilik tarixinə malik olması və Azərbaycanın dövlətçilik ənənəsinin qorunub saxlanılmasındakı xüsusi rolu ilə birbaşa bağlıdır. Beşminillik şəhər mədəniyyəti tarixini özündə yaşadan Naxçıvan dünya sivilizasiyasında möhtəşəm mədəniyyət nümunələri ilə yanaşı, yüz illər boyu formalaşmış böyük dövlətçilik ənənələrinin də saxlanc yeri olmuşdur. Onuncu əsrdə "Naxçıvan şahlığı", on ikinci əsrdə isə Azərbaycan Atabəylər dövləti yaranmışdır. On səkkizinci əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına xüsusi töhfə vermişdir. İyirminci əsrin əvvəllərində Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsində və tarixi ərazisinin qorunmasında mühüm xidmətlər göstərmiş, 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası da tarixi köklərimizdən gələn, Naxçıvan xanlığı dönəmində yeni idarəçilik meyarları ilə zənginləşən dövlətçilik ənənələrimizin əsasında qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası mövcud olduğu vaxtdan konstitusion səviyyədə özünün atributlarına, o cümlədən Dövlət Bayrağına malik olmuşdur. 1924-cü ildə qəbul edilmiş "Naxçıvan Sovet Sosialist Respublikası haqqında Əsasnamə"də, Naxçıvan SSR-in 1926-cı, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1937-ci və 1978-ci ildə qəbul edilmiş konstitusiyalarında muxtariyyətin Dövlət gerbi və Dövlət Bayrağı haqqında hüquqi müddəalar olmuş, onların təsvirləri verilmişdir. 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı və digər atributları təsbit edilmişdir.

Naxçıvanın dövlətçilik tarixinin, ənənələrinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması istiqamətində muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər mühüm əhəmiyyətə malikdir. Çünki çoxəsrlik dövlətçilik tariximizin, qəbul olunmuş dövlət rəmzlərinin, rəsmi şəkildə istifadə edilmiş bayraqların bütöv bir sistem halında tədqiq edilməsi Azərbaycan milli ideologiyasının tarixi köklərini və mahiyyətini müəyyən etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il avqustun 22-də imzaladığı Sərəncam mühüm əhəmiyyətə malikdir. Sərəncamın icrasına uyğun olaraq 2014-cü ildə Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılmışdır. Muzeyin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır".***

Bu gün Dövlət Bayrağı Muzeyi dövlət atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna rol oynayır. Muzeyə gələn ziyarətçilər ulu öndərimizin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərara və həmin tarixi günə aid fotoşəkillərə tarixi keçmişimizin şanlı səhifəsi kimi maraqla baxırlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan ərazisində mövcud olmuş qədim dövlətlərin, eləcə də Naxçıvan xanlığının dövlət bayrağının müəyyən edilməsi və üzə çıxarılması istiqamətində ardıcıl tədbirlər görülür. Görülən işlərin nəticəsi olaraq Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindəki Dövlət Ermitaj Muzeyində və Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb Tarixi muzeylərinin bayraq fondlarında Naxçıvan xanlığının dövlət və döyüş bayraqları aşkar edilmişdir. Bayraqların üzərindəki təsvirlər Naxçıvan xanlığının hərbi-siyasi mövqeyini, strategiyasını tam şəkildə ifadə edir. Bu bayraqlar Naxçıvan xanlığının tarixini öyrənmək, xanlığın hərbi-siyasi hədəflərini, ideologiyasını müəyyən etmək baxımından da əhəmiyyətlidir. Naxçıvan xanlığının bərpa olunmuş həmin bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, qədim pul nişanları, Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin bayraqları da bu gün Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində nümayiş etdirilir.

Bu gün hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Bu gün qədim diyarın sakinləri noyabrın 17-ni Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd etməklə ulu öndərimizə, bayrağımıza, dövlətimizə, dövlətçiliyimizə olan sonsuz sevgilərini və Heydər Əliyev yoluna sədaqətlərini ifadə edirlər.

**"Şərq qapısı"**

# Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Gününə həsr olunmuş tədbirlər keçirilib



Noyabrın 16-da Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində keçirilən tədbiri mədəniyyət naziri Natəvan Qədimova açıb. Bildirib ki, bu gün milli siyasət və ideologiyanın ən mühüm simvolu olan Azərbaycanın üçrəngli bayrağı 1990-cı il noyabrın 17-də ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda əbədi yüksəkliyə qaldırılıb.

Qeyd olunub ki, müstəqilliyimizin, dövlətçiliyimizin və milli dəyərlərimizin daşıyıcısı olan üçrəngli bayrağımıza ümumxalq sevgisinin formalaşdırılması Heydər Əliyev siyasi yolunun əsasını təşkil edir.

Vurğulanıb ki, çoxəsrlik dövlətçilik tariximizdə qəbul olunmuş rəmzlərin, rəsmi şəkildə istifadə edilmiş bayraqların bütöv bir sistem halında tədqiq edilməsi milli ideologiyanın tarixi köklərini və mahiyyətini müəyyən etmək baxımından mühüm əhəmiyyətə malikdir. Azərbaycanın üçrəngli bayrağı dövlətimizin müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir. Azərbaycan əsgəri Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir. 17 noyabr tarixinin – Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi hər bir Azərbaycan vətəndaşına milli qürur yaşadır.

Sonra muzeyin ekspozisiyasına baxış olub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyi tərəfindən "Naxçıvandan yüksəlib dalğalanan Dövlət Bayrağı" mövzusunda tədbir keçirilib. Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində təşkil olunan tədbirdə təşkilat aparatının baş təlimatçısı, partiyanın Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvü Cəlal Həsənli çıxış edib. Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli Dövlət Bayrağı 1990-cı il noyabrın 17-də xalqımızın ümummilli lideri Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında muxtar respublikanın Dövlət Bayrağı kimi təsdiq edilib, Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılıb. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib.



Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması, eləcə də 2014-cü il 17 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi Naxçıvanda dövlət atributlarına ehtiramın ifadəsidir.

Qeyd olunub ki, bayrağımızı hər bir azərbaycanlının qürur mənbəyinə çevirən bu müqəddəs rəmzin xalqımızın mübarizlik ruhunun simvolu olmasıdır. Bu ruh Azərbaycan xalqının yenilməz mənəviyyatının ən canlı təzahürüdür. Məhz mübarizlik və yenilməzlik ruhu sayəsində tarixin bütün dönəmlərində, həm də qədim Naxçıvanın timsalında Azərbaycan dövlətçiliyi öz kökləri ilə keçmişinə bağlı olub, tarixi ilə birgə yaşamağı, keçmişi ilə bu gününün vəhdətini yaratmağı bacarıb. Ona görə də dövlətçiliyimiz milli siyasət və ideologiyanın ən mühüm simvolu olan tarixi bayraq ənənəsində də özünün maddi, mənəvi və siyasi mədəniyyətinin əsas özəlliklərini, başlıcası isə ölməz milli ruhunu daim yaşatmaqdadır.

Sonra muzeyin ekspozisiyasında nümayiş edilən eksponatlara baxılıb.

**Xəbərlər şöbəsi**

# Baba Nemətullah Naxçıvani irsinin öyrənilməsinə dövlət qayğısı

*Tarixdən məlumdur ki, müxtəlif dövrlərdə ilk təhsillərini Naxçıvan mədrəsələrində, xüsusilə Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin XII əsrin sonlarında Atabəylər Memarlıq Kompleksində inşa etdiyi Came məscidinin yanında fəaliyyət göstərən mədrəsədə alan bir sıra gənc təhsillərini müsəlman Şərqinin məşhur elm və təhsil mərkəzlərində (Təbriz, Bağdad, Nəcəf, Qahirə və sair) davam etdirmiş, yüksəkixtisaslı alim və mütəxəssis kimi yetişmişdir.*




Bu da məlumdur ki, həmin görkəmli şəxsiyyətlərin bir qismi təhsillərini başa vurduqdan sonra doğma yurduna qayıtmış, bir hissəsi isə ya təhsil aldıqları şəhərdə qalmış, yaxud da müsəlman Şərqinin bir sıra mühüm elm və təhsil müəssisələrinə getmiş, orada fəaliyyət göstərmişdir. Öz adlarına əlavə etdikləri "Naxçıvani", "Ordubadi" kimi nisbələrlə doğulub boya-başa çatdıqları bölgəyə böyük şöhrət gətirən və onu tanıdan belə şəxsiyyətlərin adlarına orta əsr qaynaqlarında tez-tez rast gəlinir. Belə şəxsiyyətlərdən biri də Naxçıvan şəhərində dünyaya göz açmış və həyatının çox hissəsini orada keçirmiş, sonradan İran və Türkiyədə yaşamış məşhur sufi şeyxi və filosof Baba Nemətullah Naxçıvanidir.

Orta əsr mənbələrində bu böyük şəxsiyyətin həyat və fəaliyyəti ilə əlaqədar geniş məlumat yoxdur. Bununla belə, bəzi təzkirələrdə, tarixi və ədəbi əsərlərdə, müxtəlif səpkili kitablarda Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığı ilə bağlı bəzi qeydlər özünə yer almışdır. Naxçıvanda ailəsinin yanında ikən, uşaqlıq, yeniyetməlik və gənclik çağlarında o, dövrünün məşhur və dəyərli alimlərindən həm dini, həm də dünyəvi elmlərdən dərs almışdır. Hələ uşaq ikən ondakı yaxşı qavrama qabiliyyəti, öyrənmə əzmi və bacarığı ailəsi və müəllimləri tərəfindən aşkar edilmiş, buna görə də onun təhsilinə xüsusi diqqət yetirilmişdir. Haqqındakı bütün qaynaqlarda onun imkansız bir ailədə doğulduğu, eyni zamanda dövrün məşhur alimlərindən dərs aldığı və alimlər arasındakı nüfuzu inkaredilməz fakt kimi göstərilmişdir. Ana dili olan oğuz türkcəsi ilə yanaşı, fars və ərəb dillərini də mükəmməl öyrənmişdir.

Qaynaqlarda Şeyx Əlvan, Ülvanəl Ağşəhri, Baba Nemət, Baba Nemətullah, Baba Naxçıvani kimi xatırlanan alim həyatının çox hissəsini hicri-qəməri təqvimi ilə IX, miladi təqvimi ilə XV yüzillikdə yaşamışdır. Baba Nemətullah Naxçıvani uşaq yaşlarından islami elmləri öyrənməyə başlamış, həmin vaxtlardan özünün əqli, zəkası və digər müsbət keyfiyyətləri ilə diqqəti cəlb etmişdir. Qaynaqlarda Naxçıvanda hansı müəllimlərdən dərs alması, hansı elmlərə sahib olması ilə əlaqədar faktlara rast gəlinməsə də, məlumdur ki, uşaqlıq və gənclik illərində, Uzun Həsənin dövründə (1467-1478-ci illər) zəmanəsinin bir çox alimlərindən, o cümlədən məşhur alim Xacə Mahmud Parsandan dərs almış, Ağqoyunlu Sultan Yaqub zamanında (1478-1490-cı illər) Naxçıvan mədrəsələrində müəllim işləmiş, qısa bir zamanda hicri IX (miladi XV) yüzilliyin tanınmış alimlərindən birinə çevrilmiş, zahiri elmləri tamamladıqdan sonra təsəvvüfə bağlanmışdır. Bu sahədə də mükəmməl bilik aldıqdan sonra Naxçıvandan ayrılmış, İslam aləminin bir çox önəmli mərkəzlərini gəzmiş, bir müddət Təbrizdə yaşamış, görkəmli sufi şeyxi Ömər Rövşəni ilə burada görüşmüşdür. Təbrizdə qısa müddət qalmasına baxmayaraq, Azərbaycanın bu qədim elm və mədəniyyət mərkəzində yaşayan alimlərlə, xüsusilə Ömər Rövşəni ilə görüşləri və söhbətləri onun elmi dünyagörüşünə və sufilik baxımından daha da kamilləşməsinə böyük təsir göstərmişdir. Təbrizdə yaşadığı dövrdə zəmanəsinin görkəmli sufi şeyxlərindən "Nəqşibəndiyyə" təriqətinə mənsub Sunullah Kuzəkunani (1523-cü ildə vəfat edib) və onun xəlifəsi Dərviş Əxi Hüsrəvşahi (1530-cu ildə vəfat edib) vasitəsi ilə "Nəqşibəndiyyə" təriqətinə daxil olmuşdur. Ona şeyxlik məqamının Dərviş Əxi Hüsrəvşahi tərəfindən verildiyi də məlumdur. "Nəqşibəndiyyə" təriqətinin "Xəlvətiyyə" qoluna daxil olan Baba Nemətullah Naxçıvani bundan sonra həyatının çoxunu tənhalıqda keçirmişdir. Müasirləri tərəfindən "Gizlənən dərviş" adlandırılan Baba Nemətullah Naxçıvaninin həyatı haqqında məlumatın azlığı da bununla əlaqədardır.

Baba Nemətullah Naxçıvani hicri 905-ci ildə (miladi 1499) Təbrizi tərk edərək Anadoluya gedərək Qaraman vilayətinin Ağşəhər qəsəbəsində məskunlaşmışdır. Qısa müddət ərzində Ağşəhər camaatının xüsusi hörmətini qazanmış və bir təkkə (xanəgah) quraraq ətrafına müridlər toplamış, çoxlu tələbələr yetişdirmişdir. Həmçinin o, xalqa həqiqi, doğru yol göstərilməsi istiqamətində bir sıra addımlar atmışdır. Məhz bunun nəticəsidir ki, o, zaman keçdikcə xalqın sevgi və etimadını qazanmışdır. Hətta Ağşəhər camaatı arasında onu əlvan (ulvan) şeyx kimi çağırmışlar. Qaynaqlarda "Əlvanül-Ağşəhri", yəni "Ağşəhərin qüruru" kimi təqdim olunmuş və qurmuş olduğu təkkənin şeyxi olduğu üçün "Şeyx Əlvan" ləqəbi verilmişdir.

Ağşəhərdə, təxminən, 15 il yaşayan Baba Nemətullah 1514-cü ildə vəfat etmiş və orada da dəfn edilmişdir.

Baba Nemətullah Naxçıvani zəmanəsinin tanınmış alimi, filosofu, məşhur sufi şeyxi olmuşdur. Əhməd bin Mustafa Taşköprüzadə "Şəqayiqün-Nömaniyyə" əsərində onun adını Sultan Bəyazidxan Fazi zamanının (1481-1512-ci illər) məşhur şeyxləri sırasında qeyd edərək yazır: *"Allah yolunda xidmət edən ariflərdən biri, dərvişlik və sufiliyin fəxri olan Baba Nemətullah Naxçıvani özünü xalqdan gizlədirdi. O, rəbbani (ilahi) elmlərdə dərin bilikli olmuşdur. O, Quranın digər təfsirlərinə müraciət etmədən ona təfsir yazmış, orada bir çox şəxslərin dərk etmədiyi incəlikləri və həqiqətləri fəsahətli ibarələr və bəlağətli ifadələrlə aydınlaşdırmışdır"*.

Bu fikir onun Nəqşibəndiyyənin Xəlvətilik qoluna mənsubluğundan və yüksək elmə, biliyə malik olmasından irəli gəlirdi. Sufiliklə bağlı ədəbiyyatlardan məlumdur ki, dörd idrak mərhələsini (şəriət, təriqət, mərifət, həqiqət) keçən adamlar o dərəcədə yüksək elmə, savada malik olurdular ki, onlar elm dəryasında özlərinin çox az bildiklərini və ya bildiklərinin naqis olduğunu dərk edirdilər. Ona görə də onlar camaat arasına çox çıxmır, tərki-dünya, xanənişin həyat keçirir, öz hücrələrində tək-tənha oturaraq günlərini ibadət və zikrlə keçirirdilər. Baba Nemətullah Naxçıvaninin də özünü xalqdan gizlətməsi bununla izah olunmalıdır.

Bir çox dini elmləri bilməklə nüfuz sahibi olan Baba Nemətullah Naxçıvani ad-sandan, şan-şöhrətdən uzaq olub, tərki-dünya bir həyat keçirmişdir. O, dünya malına əsla etina etməmiş, yoxsulluğu özünə fəxr bilmişdir. Fəqirliyi zənginlikdən üstün tutan mütəfəkkir elmlə alver edən fırıldaqçı, riyakar alimlər barəsində *"Onlar dünya malını çox sevir, elmlərini dünya malının bər-bəzəyi xatirinə alçaldırlar"* söyləmişdir. Dövrünün bu tanınmış din xadimi zahirən özünü sufi, tərki-dünya kimi göstərən ikiüzlü insanları da pisləmiş, onların uydurduqları xurafat və bidətləri kəskin tənqid etmişdir. O, insanlara, xüsusilə təsəvvüf yolunda irəliləyən adamlara əbədi olan axirət həyatı üçün çalışmağı tövsiyə etmişdir. Gözü-könlü tox olan, heç kəsin malına tamah salmayan Baba Nemətullah Naxçıvani başqasının malını haqsız yerə yeməyin ən böyük günahlardan biri olduğunu söyləmiş, gözütoxluğun, comərdliyin, təvazökarlığın, təmənnasızlığın həqiqi möminin, sufinin ən böyük keyfiyyəti və ləyaqəti olduğunu bəyan etmişdir.

Məşhur sufi şeyxi və filosof həyatı boyu bir neçə qiymətli əsər və bəzi orta əsr müəlliflərinin əsərlərinə şərh yazmışdır. Onun günümüzə gəlib çatan əsərləri aşağıdakılardır: "Əl-Fəvatihəl-ilahiyyə vəl-Məfatihül-Qaybiyyə" (Quranın məşhur sufi təfsiri), "Hidayət əl-İxvan" (təsəvvüfə dair əsər), Mühyiddin ibn Ərəbinin "Füsusəl hikəm"inə yazdığı təsəvvüfi bir şərh, "Əl-Kadi təfsiri haşiyəsi", Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" adlı təsəvvüfə dair farsca əsərinin eyni dildəki şərhi, Qazi Beyzavinin "Ənvar ət-Tənzil və əsrar ət-Təvil" əsərinə haşiyə (qeydlər) və sair.

Ancaq, təəssüf ki, belə bir görkəmli şəxsiyyətin həyat və yaradıcılığı keçən yüzillikdə bəzi ictimai-siyasi səbəblər üzündən diqqətdən kənarda qalmış, sistemli tədqiqat obyektinə çevrilməmiş, onun haqqında elmi ictimaiyyətə və xalqa məlumat çatdırılmamışdır. Ona görə də zəngin elmi-fəlsəfi irsə malik olan görkəmli mütəfəkkir Baba Nemətullah Naxçıvaninin yaradıcılığının öyrənilməsi və tədqiqi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2018-ci il 29 oktyabr tarixdə "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında" Sərəncam imzalamışdır. Sərəncamla təsdiq edilmiş Tədbirlər Planı ilə muxtar respublikanın müvafiq müəssisə və təşkilatlarının qarşısında mühüm vəzifələr qoyulmuşdur. Sərəncamın icrası ilə əlaqədar Nemətullah Naxçıvani yaradıcılığının tədqiqi ilə bağlı elmi və təşkilati tədbirlərin görülməsi, "Nemətullah Naxçıvani: taleyi və sənəti" kitabının nəşr edilməsi, alimin irsinin araşdırılması məqsədilə Türkiyəyə tədqiqatçı-mütəxəssislərin göndərilməsi, onun qəbrinin bərpa olunması, Nemətullah Naxçıvaninin "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə" ("Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi") əsərinin tərcümə olunaraq nəşr edilməsi, "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" mövzusunda beynəlxalq konfransın keçirilməsi nəzərdə tutulur.

İnanırıq ki, naxçıvanlı alimlər öz qüvvələrini səfərbər edəcək, sərəncamın milli-mədəni irsimizə, tarixi şəxsiyyətlərimizin həyat və fəaliyyətlərinin öyrənilməsinə yüksək dövlət qayğısı olduğunu aydın dərk edərək çalışacaqlar ki, bu böyük şəxsiyyətin həyat və yaradıcılığı hərtərəfli öyrənilsin.

**Fəxrəddin SƏFƏRLİ**
*AMEA-nın müxbir üzvü*

***10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən tədbirlərə yekun vurulub.***

# Beynəlxalq Tələbə-Gənclər Həftəsinin qalibləri mükafatlandırılıb



Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində keçirilən tədbirdə əvvəlcə Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə bağlı məlumat verilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin böyük məsləhətçisi Tural Rzayev çıxış edərək bildirib ki, muxtar respublikada uğurla həyata keçirilən gənclər siyasəti gənclərin istedadlarının üzə çıxarılmasını, intellektual səviyyələrinin yüksəldilməsini, asudə vaxtlarının səmərəli təşkilini təmin edib. Muxtar respublikada gənclik mərkəzləri, elektron kitabxanalar, mədəniyyət evləri, olimpiya-idman kompleksləri, idman mərkəzləri gənclərin istifadəsinə verilib. Gənclərin təşkilatlanması və fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan Muxtar Respublikasında gənclər siyasətinin daha bir bəhrəsi isə Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı seçilməsidir. Naxçıvan gəncləri 2018-ci ildə yaradılmış bu tarixi imkandan səmərəli istifadə edir, Naxçıvan şəhərinin tanıdılmasında fəallıq göstərirlər.

Qeyd edilib ki, Naxçıvanda bütün gənclər kimi tələbə-gənclər də dövlət qayğısı ilə əhatə olunub. Muxtar respublikanın ali və orta ixtisas təhsili məktəbləri ən qabaqcıl təhsil infrastrukturuna malikdir. Müasir universitet şəhərciklərində, orta ixtisas təhsili müəssisələrində yeni tədris korpuslarının istifadəyə verilməsi, yeni texnologiyaların və distant təhsilin tətbiqi gənclərin istedadlı kadr kimi yetişməsində mühüm əhəmiyyət daşıyır. Yaradılan şəraitə görə nəinki ölkəmizin, həm də xarici ölkələrin gəncləri ali təhsil almaq üçün muxtar respublikanın təhsil müəssisələrini seçir. 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi çərçivəsində muxtar respublikada tələbə-gənclər arasında tədbirlərin keçirilməsi və bu tədbirlərdə qalib gənclərin mükafatlandırılması da onların istedadlarının üzə çıxarılmasına, bacarıq və yaradıcılıqlarının inkişaf etdirilməsinə bir dəstəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin böyük məsləhətçisi müsabiqə və yarışlarda qalib olan gəncləri təbrik edib, onlara yeni uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Məcid Seyidov çıxışında bildirib ki, muxtar respublikada dövlət gənclər siyasəti bu gün uğurla həyata keçirilir. Gənclər siyasətinin bütün istiqamətləri üzrə dövlət proqramları icra olunur. Gənclər muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvanda tələbə-gənclərin milli dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ruhunda formalaşması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu baxımdan hər il Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş tədbirlər də mühüm əhəmiyyət kəsb edir.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə həftə ərzində keçirilən yarış, müsabiqə və oyunların qaliblərinə mükafatlar təqdim edilib.

Tədbirdə Naxçıvan Musiqi Kolleci tələbələrinin ifasında mahnılar səsləndirilib.

Qeyd edək ki, Beynəlxalq Tələbə-Gənclər Həftəsində yüngül atletika, voleybol, badminton, stolüstü tennis idman növləri üzrə yarışlar, həmçinin şən və hazırcavablar klubları arasında müsabiqə, "Xəmsə" və "Azərbaycanı tanı" intellektual oyunları təşkil olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

# Naxçıvan Qarnizonu qoşunları yüksək peşəkarlıq göstərib



Əməliyyat hazırlığı çərçivəsində idarəetmə orqanlarının qarşılıqlı əlaqə səviyyəsinin təkmilləşdirilməsi, qərargah və xidmətlərin vahid idarəetmə orqanı kimi uzlaşmasına nail olunması məqsədilə Azərbaycan Ordusunda noyabrın 12-dən 16-dək komanda-qərargah hərb oyunları keçirilib. Əlahiddə Ümumqoşun Ordu komandanının rəhbərliyi altında Naxçıvan Qarnizonu qoşunları yüksək nəticələr əldə ediblər.

Komanda-qərargah hərb oyunlarının ssenarisinə uyğun olaraq tam döyüşə hazırolma vəziyyətinə gətirilməsi üçün Naxçıvan Qarnizonu qoşunlarının idarəetmə məntəqələri və praktik fəaliyyətə cəlb edilən bölmələri həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb. Təyin edilmiş ərazilərdə birləşmə və hissələrin səfərbərliklə komplektləşdirilməsi üçün şəxsi heyət və texnikaların qəbulu məntəqələri açılaraq xüsusi ixtisaslar üzrə çağırılmış heyətin praktik qəbulu həyata keçirilib. Birləşmə və hissələrin idarəetməsini həyata keçirmək üçün ərazidə idarəetmə məntəqələri açılıb.

Naxçıvan Qarnizonu qoşunları döyüş atışlı mərhələsini uğurla icra ediblər. Komanda-qərargah hərb oyunlarının planına uyğun olaraq şərti düşmənin silahlı hücumunun dəf edilməsi məqsədilə motoatıcı və döyüş təminatı bölmələri praktik fəaliyyət göstərib.

Yaradılmış tabor taktiki qrupları raket-artilleriya, aviasiya və hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı əlaqədə əks-zərbə endirib.

Yekun mərhələdə hərb oyunlarında iştirak edən qərargah və qoşunların fəaliyyəti təhlil edilib.

Sonda komandanlıq tərəfindən birləşmə və hərbi hissə komandirlərinə növbəti tapşırıqlar verilib, komanda-qərargah hərb oyunlarına yekun vurulub.

**Nəriman NƏCƏFOV**



# PAYIZ möhləti
(esse)

Fəsillərin hamısı gözəldir... Amma nahaq yerə qızılı payız da deməyiblər. Ömrümüzə yazılmış günləri bir, iki, üç saydıq və bir də baxdıq ki, Salvartının ətəklərindən əsən xəfif mehin vaxtilə şirə çəkdiyi torpağa bir-bir səpələdiyi xəzəl nazlı gözəlin gur sarı saçları kimi hər tərəfi bürüdü. Gəl, bu payızdı, – deyib keçmə! Sən üst-üstə dəstələnib yaxınlaşan qışın ağ örpəyinə yataq kimi yayılacaq o kövrək yarpaqların bir pıçıltıdan diksinib xışıltı ilə bir-birini qovalamasına bax! Yazda kükrəyib, yayda qaynayıb coşan təbiətin nəhayət, yorularaq bir nağılın sehrində asta-asta mürgüləyib mışıldamasıdır sanki bu xışıltı... İlıq payız Günəşi parlasa da, orda, o qızılı rəngli yarpaqların altında kimsə öz yuvasına sığınıb, qışın yaxınlaşan addım səsindən üşüyürmüş kimi növbəti yaza qədər həzin mürgüyə dalacaq.

Bax bu, əsl payızdı... Bütün ömrü boyu çalışaraq, zəhmətlə bar-bəhər yetirmiş, qırışıq əllərində həmin illərin qabar izləri hələ də qalmış səksən yaşlı babanın səbri qədər qızıldır bu payız... Ömrün axar-baxarlı yaz günləri arxada qalsa da, indi sirdaşı olmuş uzun payız gecələrində təbiət aradabir səksənib, həzin səsiynən, bax o dağlara, qışı gətirirəm, – deyir bu dəfə. Günəşli keçən qısa günlərdə tələsə-qova qış tədarükü görənlər tələssə də, o tələsmir, çünki ağaclardan qopmamış hələ neçə yarpaq var. Bir soyuq qış küləyi sonuncu yarpağı qoparana qədər gözləyib, daha bir gün möhlət istəyəcək. Bircə gün! Bu da ömrün qızıl payızıdır. Təki qəfil şaxta düşməsin!

✍ Əli CABBAROV

## Muxtar respublika ərazisində növbəti payız yaşıllaşdırma işlərinə başlanılır

***Naxçıvan Muxtar Respublikası ərazisində əlverişli ekoloji mühitin formalaşdırılmasında kompleks dövlət tədbirləri həyata keçirilir. Xüsusilə bu sahədə ən mühüm ekoloji amil olan yaşıllıqların, meşə ehtiyatlarının qorunması və yeni meşə massivlərinin, meyvə bağlarının salınması üçün tədbirlər icra edilir. Həyata keçirilən dövlət ekoloji tədbirləri və fəal vətəndaş mövqeyi nəticəsində son 25 ildə meşə və yaşıllıqların sahəsi dəfələrlə artıb.***



Ölkəmizdə, o cümlədən Naxçıvanda bu sahədə həyata keçirilən ekoloji siyasətin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən olunmuş və bu gün də uğurla davam etdirilməkdədir. Muxtar respublika ərazisində "Yaşıllaşdırma aylıqlarının, şənbə iməciliklərinin keçirilməsi haqqında" qəbul edilmiş qərar, "Azərbaycan Respublikası ərazisində meşələrin bərpa edilməsi və artırılmasına dair Dövlət Proqramı"na uyğun olaraq, ümumilikdə, 18 min hektar sahədə meşə massivləri, yaşıllıq zolaqları salınıb. Təbii şəraiti, kontinental iqlimi günəşli saatların miqdarının çoxluğu ilə müşahidə edilən, təbii meşə ehtiyatı o qədər də zəngin olmayan diyarımızda yaşıllıqların artırılması göstərilən dövlət qayğısının bəhrələridir. Meşə ehtiyatlarının artırılması ilə bərabər, bu sahədə iqtisadi səmərəliliyə də önəm verilməsi üçün 2010-cu ildən etibarən muxtar respublika ərazisində meyvəçiliyin inkişaf etdirilməsinə də diqqət artırılıb. Meşə ağaclarından fərqli olaraq meyvəçiliyin inkişafı daha çox su təminatı, yüksək aqrotexniki qulluq tələb edir. Bunun üçün muxtar respublikamızda hərtərəfli şərait yaradılıb. Yeni sututarların tikilməsi, bərpa edilməsi, su kanallarının, qapalı suvarma sistemlərinin yaradılması və digər tədbirlər nəticəsində əvvəllər suvarma suyu olmayan 30 min hektardan çox sahə su ilə təmin edilmiş və digər ərazilərdə su təminatı xeyli yaxşılaşdırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə iki dövlət proqramı qəbul edilmişdir. Dövlət proqramlarına əsasən kənd təsərrüfatı əkinləri üçün yararsız olan, müxtəlif dərəcədə eroziyaya məruz qalmış və meyilli (təpəlik) ərazilərdə, çay vadilərində, sututarların kənarlarında, ümumilikdə, 1000 hektara yaxın sahədə meyvə, 200 hektardan çox sahədə üzüm bağları salınıb, 900 min ədəddən çox ting əkilib. Naxçıvanda yerli meyvə sortları ilə bərabər, ərazinin iqliminə və torpağına uyğunlaşması mümkün olan yeni meyvə sortlarının gətirilməsinə də üstünlük verilir. Bu məqsədlə 2015-2017-ci illərdə 100 hektar ərazidə püstə bağı salınıb. Meyvəçiliyin inkişafında rayonlaşdırma prinsipinə üstünlük verilməsi bu sahənin inkişafına və məhsuldarlığın artmasına şərait yaradan amillərdəndir.

Muxtar respublika ərazisində, ayrı-ayrı inzibati rayonlarda, Naxçıvan şəhəri ərazisində 2018-ci ildə də bu sahədə aparılan işlər davam etdirilməkdədir. Bu ilin yaz əkin mövsümündə diyarımızda yaşıllıqların sahəsi 223 hektardan çox artırılıb, 100 hektar sahədə yeni meyvə bağları salınıb. Bu tədbirlər payız əkin mövsümündə də davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə verilən tapşırıqlara uyğun olaraq payız əkini planı hazırlanmışdır. Həmin plana əsasən muxtar respublikanın bütün ərazilərində 300 hektar sahədə meşəsalma, meşəbərpa işlərinin aparılması və yeni meyvə bağlarının salınması nəzərdə tutulur. Bunun da 60 faizdən çoxu meyvə bağları olacaqdır. Payız əkini mövsümünə hazırlıq işləri başa çatdırılmış və orta dağlıq, dağlıq ərazilərdə toxumla əkin işlərinə başlanılmışdır. Milli park, qoruq ərazilərində yabanı meyvə toxumları və yerli meşə cinsi ağacların toxumları ilə əkin işləri davam etdirilir. Vaxtında toxum tədarükünün edilməsi, ting yetişdirilməsi sahəsində aparılan işlər tingə olan tələbatın tamamilə təmin edilməsinə şərait yaradır. Hazırda nazirliyin tingçilik təsərrüfatlarında 400 mindən çox ting vardır ki, bu da payız fəslində aparılacaq əkin işlərində tələbatı tamamilə ödəyəcəkdir.

Bu gündən etibarən muxtar respublika ərazisində yaşıllaşdırma tədbirlərinə başlanılır. İlk yaşıllaşdırma günü, ümumilikdə, 20 hektara yaxın sahədə yeni meyvə, üzüm tinglərinin əkilməsi planlaşdırılıb.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Bəstəkarlar Təşkilatının 40 illiyinə həsr olunmuş tədbir keçirilib

*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının 40 illiyinə həsr olunmuş tədbir keçirilib.*





Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, 40 illik yubileyi qeyd edilən Bəstəkarlar Təşkilatı ümummilli lider Heydər Əliyevin təşəbbüs və qayğısı ilə 1978-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan Təşkilatı kimi yaradılıb və doğma diyarımızda musiqi sənətinin yüksəlişinə stimul verib. Ötən 40 il ərzində bu təşkilat muxtar respublikanın ictimai-mədəni həyatında fəal iştirak edib, milli musiqi mədəniyyətinin zənginləşməsi yolunda səmərəli fəaliyyət göstərib. Müstəqillik illərində muxtar respublikada təşkilatın fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb, onun sıralarına yeni üzvlər qəbul edilib. Bu illərdə Naxçıvan bəstəkarları əhəmiyyətli uğurlar qazanıb.

Nazir Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb, mədəniyyət və incəsənətimizə göstərilən böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova mədəniyyət ictimaiyyəti adından dərin minnətdarlığını bildirib.

Bəstəkarlar Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Yaşar Xəlilov "Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının fəaliyyəti" mövzusunda çıxış edərək qeyd edib ki, təşkilat muxtar respublikanın musiqi mədəniyyətinin inkişafı və zənginləşdirilməsi yolunda uğurlu fəaliyyət göstərir. Təşkilatın ötən illərdəki hesabat konsertlərindən söhbət açan Yaşar Xəlilov bildirib ki, naxçıvanlı bəstəkarların müxtəlif janrlarda yazdıqları yeni əsərlər musiqisevərlərin marağına səbəb olub. Naxçıvanlı bəstəkarların əsərləri, simfonik və kamera musiqisi dəfələrlə böyük konsert salonlarında səslənib. Təşkilat üçün yüksək iş şəraitinin yaradılması və göstərilən dövlət qayğısı onların yaradıcılıq imkanlarını daha da genişləndirib, yeni əsərlər yaratmağa ruhlandırıb.

Sonra Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının hesabat konserti olub.

Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar Şəmsəddin Qasımovun "Sönməyən Günəşim" əsəri ilə başlayan hesabat konsertində ayrı-ayrı janrlarda bəstələnmiş mahnı və musiqi nömrələri səsləndirilib.

**Əli RZAYEV**

## Sənətşünasın yubileyi qeyd olunub

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində Azərbaycan Rəssamlar İttifaqının üzvü, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin baş fond mühafizi, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, sənətşünas Nizami Alıyevin 60 illik yubileyi qeyd olunub.*



Tədbiri Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva açaraq muxtar respublikada sənət adamlarına göstərilən yüksək dövlət qayğısından bəhs edib.

Vurğulanıb ki, Nizami Alıyev Naxçıvanın dekorativ-tətbiqi sənət nümunələrini, eləcə də qədim memarlıq və monumental sənət abidələrini tədqiq edib, Naxçıvan abidələrinin öyrənilməsi ilə əlaqədar təşkil olunan bütün elmi ekspedisiyalarda fəallığı ilə seçilib.

Sənətşünas alim bu gün də Naxçıvan rəssamlarının, Naxçıvanın tarixi-memarlıq abidələrinin, qədim yaşayış yerlərinin, qalaların, dini abidələrin təbliğində fəal iştirak edir.

Tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Elbrus İsayev, Xalq rəssamı, professor Hüseynqulu Əliyev və sənət dostları çıxış edərək yubilyarı təbrik ediblər.

Sonda Nizami Alıyev fəaliyyətinə yüksək qiymət verildiyinə, göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Cüdo üzrə seminar

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Cüdo Federasiyası və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının birgə təşkilatçılığı ilə məşqçilər və idmançılar üçün seminar keçirilib.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən seminara məşqçi-müəllimlər, muxtar respublikanın perspektivli cüdoçuları qatılıblar. Azərbaycan Cüdo Federasiyasının regionlarda cüdonun inkişafı sektorunun müdiri, ikiqat Avropa çempionu Tərlan Poladov, Veteranlar Komitəsinin üzvü Vüsal Cəfərov və federasiyanın Hakimlər Komitəsinin üzvü Valeh Məhərrəmov cüdoçuların təlim-məşq prosesi metodikasından danışıblar. Məşqçilərin yeniyetmə cüdoçularla iş prosesində sadə hərəkətlərdən başlayıb mürəkkəb hərəkətlərə necə keçmək lazım olduğu izah edilib.

Sonra suallar cavablandırılıb.



Qeyd edək ki, bu gün 17 noyabr – Milli Dirçəliş Gününə həsr olunmuş cüdo üzrə yeniyetmələr arasında muxtar respublika birinciliyinə start veriləcək.

✍ Ceyhun MƏMMƏDOV

### İtmişdir

Şərur rayonundakı Kürkənd sakini Babayeva Məlahət Həbib qızına məxsus 1996-cı il tarixli 145A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 837